# AĞLAMA, BALAM




Samavara od salmışam, ağlama, balam, ağlama,
İstəkana qənd salmışam, ağlama, balam, ağlama.
Səni anandan almışam, ağlama, balam, ağlama.
Səksənmə, diksinmə yarın yanında sən, balam,
ağlama, bircəm, ağlama.

Əlin əlimə almışam, ağlama, balam, ağlama.
Qolun boynuma salmışam, ağlama, balam, ağlama.
Sən getmisən, tək qalmışam, ağlama, balam, ağlama.
Səksənmə, diksinmə yarın yanında sən, balam,
ağlama, bircəm, ağlama.